# QARABAĞ TORPAQLARININ MÜNBİTLİYİNİN BƏRPASI

**Kəmalə Dəmirova**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Torpaqşünaslıq və Aqrokimya İnstitutu, kama.damir@bk.ru*

İşğaldan azad olunmuş torpaqlarımızın münbitliyinin bərpası və kənd təsərrüfatı bitkiləri altında istifadəsi hazırki dövrün ən aktual problemlərindən biridir.

Həmin ərazidə yayılmış üzvı təkibli tullantılardan (bitki qalıqları, məişət tullantıları və peyin) biokonversiya üsulu ilə qida elemüntləri ilə zəngin, C:N (üzvi maddənin azota olan nisbəti 10-dan aşağı olan üzvi gübrə - kompost hazırlanır. Bu gübrənin hektara 30-40 ton hesabı ilə torpağa verilməsi həm iqtisadi, həm də ekoloji cəhətdən çox səmərəlidir. Bu gübrəni hazırlamaq üçün eni 1,5-2,0 metr, uzunluğu istənilən ölçüdə, dərinliyi 0,5 metr olan quyu qazılır, sonra 40% peyin, 25% məişət tullantları, 25% bitki qalıqları, 5% sönməmiş əhəng, 5% sadə superfosfat tökülür, layların arasına torpaq səpilir, su çilənir, üzəri polietilen örtüklə qapanır. Əhəng tökməkdə məqsəd temprаturu yüksəltmək, çürümə prosesini sürətləndirmək, bioloji fəallığı artırmaqdır. Kompost 5-6 ay ərzində tam əmələ gəlir. Bu müddətdə quyuda temprаtur 60-70$^{0}$-yə qədər yüksəlir. Nəzərə alsaq ki, kompost sentyabr-oktyabr aylarında hazırlanır, ekzometrik reaksiya nəticəsində ayrılan istilik hesabına temprаturun artması qış aylarına düşür. Həmin istilikdən istifadə etmək üçün kompost hazırlanan quyunun içindən su boruları quraşdırılır və ətrafda olan fermaları isitmək üçün istilik sistemi çəkilir. Üzvi maddə və qida elementləri ilə zəngin kompost isə mart-aprel aylarında torpağa əsas şum altına verilir. Bu üzvi gübrə torpağın su-fiziki, fiziki, aqrokimyəvi xüsusiyyətlərini yaxşılaşdırmaqla yanaşı, torpağın bioloji fəallğını da yüksəldir, mikrobioloji proseslər sürətlənir, bu da öz növbəsində toksiki elementlərin azalmaına səbəb olur.